**"SINAM" Məhdud Məsuliyyətli Cəmiyyətin direktoru cənab Əbülfət Rəhmanova**

Bakı Dövlət Universiteti " FARABI" (BTMMN) layihəsi çərçivəsində tətbiq olunan "SERP" proqram təminatına dair

RƏY MƏKTUBU

FARABİ layihəsi olan SERP "Müəssisə resurslarının (kadr və maliyyə-mühasibatlıq) idarə edilməsi sistemi" Bakı Dövlət Universiteti olaraq bizim təşkilatda da uğurla tətbiq edilmişdir. Sistem tətbiq olunandan bəri təşkilatımızın bütün maliyyə - mühasibatlıq işinin təşkili və idarə edilməsi avtomatlaşmış bazada qurularaq tam elektron formaya keçirilmişdir.

Hal-hazırda SERP "Müəssisə resurslarının (kadr və maliyyə-mühasibatlıq) idarə edilməsi sistemi" proqramı vasitəsilə ilə mal-material, əsas vəsaitlər, pul vəsaitləri modullarinın tətbiqi uğurla həyata keçirilir. Fəaliyyət çərçivəsində əməliyyat sənədləri üzrə informasiyaların sistemə daxil edilməsi ilə müxtəlif lazımi hesabat formalarının əldə edilməsinin mümkünlüyü Mühasibat uçotu işinin təşkili və idarə edilməsini operativləşdirmiş, vaxt itkisinin qarşısını kifayət qədər almış, uçotun tam dəqiqliklə aparılmasını təmin etmişdir.

Sistem Azərbaycan Respublikasının Əmək və Vergi Məcəlləsinə, Milli Hesablar Planına uyğun qurulmuşdur. Hesablar planında və qanunvericilikdəki dəyişikliklərin və ya yeniliklərin sistemdə operativ şəkildə əks etdirilməsi də sistemin üstün cəhətlərindən biri olaraq qiymətləndirilir.

Bu işin təşkilinə görə SİNAM şirkətinin kollektivinə minnətdarlığımızı bildiririk və sistemdən istifadə edən təşkilat olaraq sizinlə işbirliyimizin uzunmüddətli olmasını arzu edirik.

**Baş mühasib :** ____________